**Büdcə, maliyyə və kredit**
**Budget, Finance and Credit**
**Бюджет, финансы и кредит**

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

**DOI: 10.59610/bbu3.2024.3.2**

*Əlirzayev Emin Əli oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*Email: alirzayev@gmail.com*
*© Əlirzayev E.Ə., 2024*

**UOT: 369**
**JEL: H55;I38;J14**

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL TƏMİNATIN KONSEPTUAL MƏSƏLƏLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** - Azərbaycan Respublikasında sosial müdafiənin təkmilləşdirilməsi istiqamətində sosial təminatın konseptual məsələlərinin müəyyənləşdirilməsinin elmi əsaslandırılmış həll mexanizmlərinin aşkar olunmasıdır.

**Tədqiqatın metodologiyası –** tədqiqat prosesi sahə üzrə idarəetmə səviyyəsində formalaşmış beynəlxalq və yerli praktikanın müqayisəli elmi təhlili ilə həyata keçirilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – məqalədə sosial müdafiə proqramlarının tətbiqinin ölkənin sosial müdafiə sisteminin inkişafına təsiri imkanları nəzərdən keçirilir. Nəticədə, bu məqalədə təqdim edilmiş təkliflər perspektivə hesablanmış qərarların verilməsi üçün istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** - Azərbaycanda sosial müdafiə sisteminin infrastrukturu ilə əlaqədar normativ bazanın və sosial müdafiə sisteminin prioritet istiqamətlərin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – milli sosial müdafiə modeli bazasında sosial təminatın elmi və idarəetmə istiqamətlərdə sistemləşdirilmiş yanaşmaların formalaşdırılmasıdır.

**Açar sözlər:** sosial müdafiə, sosial təminat, sosial rifah, sosial müdafiənin təkmilləşdirilməsi, büdcədənkənar fondlar, pensiya təminatı, sosial müavinətlər.

## G İ R İ Ş

“Sosial təminat” və “sosial müdafiə” terminlərinin müxtəlif vaxtlarda və müxtəlif ədəbiyyatlarda və mənbələrdə eyni vaxtda paralel olaraq, həmçinin birgə və ya tək işlədilməsi hallarına rast gəlmək mümkündür.

Qəbul edilməlidir ki, azərbaycan dilli mənbələrdə bu halla bağlı konkret təsnifatlaşmanın ortaya qoyulmadığı görünməkdədir: hər iki termin müxtəlif müəlliflər tərəfindən bəzi vaxtlarda eyni bir məqsədin ifadə olunması üçün istifadə edilir. Lakin bu məsələ ilə bağlı konkret sərhədlərin müəyyən olunması mahiyyətin dəqiq anlaşılmasına, istiqamətlərin aydın olmasına və beləliklə, problemlərin əhatə dairəsinin də dəqiq bilinməsinə şərait yaratmaqla, sahə üzrə

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

həmin problemlərin də həlli istiqamətində praktiki səviyyədə əməli addımların atılması üçün inzibati idarəetmə, eləcə də elmi-tədqiqat müstəvisində möhkəm bünövrə yaradılmasına imkan yarada bilər.

Azərbaycan mühitində cəmiyyət və idarəetmə həyatında daha çox diqqət mərkəzində olan sosial müdafiənin özünün əslində tədqiqi və təkmilləşdirilməsi ilə bağlı işlərin hələlik lazımi səviyyədə olmamasının tərkib hissəsi kimi, bilavasitə sosial təminatla bağlı təqdiqatlara da az yer verilməkdədir.

Bu istiqamətdə ilk növbədə sfera daxilində sosial müdafiə və sosial təminat kateqoriyalarının mahiyyəti, məzmunu və tərkibi ilə bağlı indiyədək normativ idarəetmə və elmi müstəvilərdə qeyri-müəyyənlik, onların çərçivəsi ilə bağlı qarışıqlıq vəziyyəti müşahidə edilmişdir ki, hesab edirik ki, bu da ümumi sosial müdafiə çərçivəsində problemlərin elmi-tədqiqat səviyyəsində sistemli və əhatəli nəzərdən keçirilməsi ilə də bağlı natamamlıqlar yaratmaqdadır.

Bu baxımdan Azərbaycan Respublikası kontekstində sahə üzrə çatışmazlıqların dəqiq göstərilməsi və həlli istiqamətində elmi cəhətdən əsaslandırılmış müddəaların ortaya qoyulması da sosial müdafiənin aktual əhəmiyyətli məsələlərindən hesab edilməkdədir.

**“Sosial təminat” anlayışının iqtisadi mahiyyəti ilə bağlı nəzəri-metodoloji problemlər**

Məlumat mənbələri üzrə aparılan uzunmüddətli müşahidələr, eləcə də ilk növbədə son yaxın illərdə iqtisadi müstəvidə sosial təminatla bağlı elmi yazıların nəzərdən keçirilməsi sosial müdafiə və sosial təminat anlayışlarının istifadəsi ilə bağlı konkret çərçivənin müəyyən olunmadığı qənaətinə gəlməyə imkan verir.

Məlumat, informasiyalar, eləcə də xüsusən ingilis dilində tərtib olunmuş mənbələrə əsaslanaraq bu iki ifadə arasında üstünlüyün “sosial müdafiə” anlayışı ilə bağlı olduğunu qeyd etmək mümkündür.

Müasir şəraitdə Azərbaycandilli mənbələrdə “sosial müdafiə” cəmiyyət fərdlərinin əsasən dövlət tərəfindən sosial həssaslıq və ya sosial-maddi çətinlik vəziyyətində maddi müdafiəsini nəzərdə tutan müxtəlif mexanizmləri əhatə edən sosial müdafiə aləti və mahiyyəti etibarilə daha çox müxtəlif ödəmələr şəklində dəstək proqramlarının göstərilməsi kimi qəbul olunur, bunun müqabilində isə sosial təminat anlayışına olduqca az və getdikcə daha az rast gəlinməkdədir. Belə ki, qeyd edilən məqsədlə bağlı bütün fikir və mülahizələr ingilis dilində daha çox “social protection” ifadəsi altında təqdim edilməkdədir. Bu mənada belə bir fikir də irəli sürmək mümkündür ki, bir çox yerli mənbələrdə istifadə edilən – “sosial təminat” terminin ingilis qarşılığı “social provision” olaraq göstərilməlidir ki, bu da daha çox elmi bazanın formalaşdığı - ingilisdilli praktikada yerini tapmamaqla, mövcud reallığı da əks etdirməməkdədir. Bu məqamla əlaqədar qeyd etmək lazımdır ki, ingilisdilli mənbələrdə ümumilikdə “social protection”, yaxud “social security” terminlərindən müvafiq kontekstdən asılı olaraq müxtəlif hallarda istifadə hallarına rast gəlinir və bu zaman bizim istifadə etdiyimiz “sosial təminat” termininə münasibətdə daha çox “social security” terminin tətbiq olunduğunu müşahidə etmək və onun eyni zamanda “sosial müdafiə” terminin ingilis dilindəki birbaşa qarşılığı olan “social protection” terminin tərkib hissəsi kimi qəbul edildiyini başa düşmək olur.

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

İlkin olaraq mövzu ilə bağlı yerli mənbələr üzrə apardığımız araşdırmalara nəzər yetirməklə qaldırdığımız problemin tədqiqat əhəmiyyətini ön plana çıxarmaq olar:

İ.Alanova tərəfindən yazılmış "Azərbaycan Respublikasında davamlı inkişaf şəraitində sosial təminat və sosial müdafiə" başlıqlı məqalə "sosial müdafiə" və "sosial təminat" ifadələrinin bəzi hallarda predmetinin dəqiq (konkret) müəyyən edilmədən eyni məqsədlərə bağlı olaraq istifadə edildiyini göstərməkdədir [1].

R.A.Hüseynov tərəfindən yazılmış "Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində" başlıqlı məqaləni nəzərdən keçirək [2]:

Bu sahəyə istiqamətlənmiş azsaylı yerli işlərdən hesab edilə bilməsinə, beynəlxalq müstəvidə sosial müdafiə ilə əlaqədar fəaliyyəti olan müxtəlif beynəlxalq təşkilatların praktikası (yanaşmaları və ya mövqeyi) də nəzərə alınmaqla, müəllif tərəfindən Azərbaycanda sosial müdafiənin quruluşuna dair təsnifatlaşdırılmanın aparılması tərəfimizdən müsbət qiymətləndirilməklə yanaşı, yazıda pensiya təminatı və sosial müavinətlərin sosial müdafiənin əsas sütunları kimi qəbul edilərək tədqiqat obyektinə alınmasına baxmayaraq, mövzunun mahiyyəti (mətninin məzmunu) nəzərə alınaraq bu sahədə düzgün (adekvat) terminoloji yanaşma müəyyənləşdirilmədiyini hesab etmək olar. Belə ki, mövzunun "sosial təminat" ifadəsi ilə deyil, "sosial müdafiə" ifadəsi üzərində qurulması daha məqsədəuyğun olardı. Eyni zamanda müəllif tərəfindən "sosial təminat" anlayışının "çoxcəhətli bir anlayış olduğu, konkret olaraq onun bütün əlamətlərini özündə birləşdirə bilən universal bir tərifin verilməsinin çətin, bəlkə də, mümkünsüz olması qeyd edilmiş, mahiyyətinin (açılışının) qarışıq verilməsinə dair müxtəlif müəllif yanaşmaları misal gətirilmiş, bununla belə, müəllif tərəfindən həmin vaxt bu problemə dair adekvat əhatəli fərdi yanaşma da verilməməkdədir. Sosial müdafiə sahəsinin təsviri üzrə bu sahənin təsnifatlaşdırılmasına dair müəllifin tərtib etdiyi sxemin təhlili nəticəsi olaraq, sosial təminat sisteminin əsas rolu - vətəndaşların onların sosial risklərlə qarşılaşdıqları zaman itirilmiş gəlirlərinin əvəz olunması, kompensasiya edilməsi və tibbi xidmətlərə bərabər əlyetərlik imkanlarının təmin edilməsi kimi verilmiş, eyni zamanda sonrakı cümlə olaraq, eyni abzas daxilində digər bir təsnifatda isə sosial təminatın istiqamətləri sırasında mənzil probleminin həlli, bu sırada mənzil subsidiyalarının verilməsi, həmçinin cəmiyyətdə sosial təcridolunmanın qarşısının alınması, müxtəlif sosial qruplara dəstək göstərilməsinin də önəmli əhəmiyyət kəsb etdiyi qeyd olunur.

2017-ci ildə Z.Y.Aslanov və K.S.Dadaşova tərəfindən hazırlanmış digər bir yazıda beynəlxalq əhəmiyyətli bir sıra normayaradıcı sənədlər və aktlara əsaslanılmaqla beynəlxalq tələblərə uyğunlaşdırılma istiqamətində müxtəlif mülahizələr verilmiş və maraqlı məqam olaraq mövzumuz nöqteyi nəzərdən qeyd edə bilərik ki, bütün sosial müdafiə mexanizmlərinə, sanki "sosial təminat" anlayışı altında yanaşılmaqla, "sosial müdafiə" anlayışına kateqoriya kimi baxılmamışdır [3].

2021-ci ildə Sumqayıt Dövlət Universitetində dərc edilmiş konfrans materialları üzrə "İşğaldan azad edilmiş regionlarda sosial təminat və quruculuq işləri" mövzusunda, həmçinin "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətlənməsi və vətəndaşların sosial təminatının yaxşılaşdırılması" başlığı ilə yazılmış başqa bir elmi mənbədə də sosial təminatla

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

bağlı kateqoriyalaşma prinsipilə üzərində sistemli təhlillərin verilmədiyini müşahidə etmək mümkündür [4].

Bilavasitə mövzuya həsr edilməsə də, 2017-ci ildə Ş.Mirzəbəyova "Modernləşmə prosesinin ziddiyyətləri: sosial ədalət problemləri" başlıqlı modernləşmə prosesinin məzmun və strukturu, ziddiyyətləri və müasir cəmiyyətlərdə sosial ədalətin təmin olunması məsələlərinə dair məqalədə modernləşmənin həyata keçirildiyi müasir cəmiyyətlərdə sosial ədalətin təmin olunmasının vətəndaşların sosial təminat məsələlərinin həlli ilə bağlı olduğu qeyd edilmiş, "sosial təminat" dedikdə, insanların qocalıq, müvəqqəti iş qabiliyyətləri olmadığı vaxtlarda, orta səviyyədən az təminatlı ailələrin və ailə başçısını itirən ailələrə və s. müəyyən vəsaitlərin verilməsini nəzərdə tutan tədbirlər sistemi kimi başa düşüldüyünü qeyd edir [5].

Əlbəttə, təkcə sosial-iqtisadi kateqoriya olmamaqla, sosial təminatın eyni zamanda iqtisadi, hüquqi, fəlsəfi, siyasi, sosial, demoqrafik və digər aspektləri mövcuddur və sosial təminat həmin elmlərin də eyni zamanda tədqiqat obyektləri çərçivəsindədir.

Sosial təminatın qeyd edilən aspektləri eyni zamanda onun funksiyalarının mahiyyətini ortaya qoymaqdadır ki, bunlardan da ən əsası onun iqtisadi funksiyası olmaqla, bu funksiyanın da mahiyyəti onun eyni vaxtda sosial və iqtisadi, başqa sözlə, sosial-iqtisadi mahiyyətli təsirlərinin olması ilə bağlıdır. Sosial təminatın qeyri-iqtisadi funksiyaları da özlüyündə sosial təminatın iqtisadi funksiyalarının icrasını möhkəmləndirməkdədir.

Həmçinin qeyd etmək lazımdır ki, sosial təminatın elmi kateqoriya olaraq tədqiqi və ölkə timsalında problemlərinin öyrənilməsinə digər elmlər müstəvisində həsr edilən tədqiqatlar heç də iqtisadiyyat üzrə dərc edilən yazılardan az deyildir.

Ehtimal etmək olar ki, sosial təminatla sosial müdafiə terminlərinə münasibətdə onların əhatə dairəsinə dair yanaşma fərqlilikləri daha çox 1990-2000-ci illərdə Azərbaycanda normativ baza quruculuğu prosesi zamanı yaranan vəziyyətlə bağlıdır. Həmin vaxtlar bu məqsədlə aparılan işlərlə bağlı daha çox rus dilində olan mənbələrdən istifadə edilmiş və həmin ifadənin yerli resurslara transformasiyası rus mənbələrində bir-birinə bənzər olan və kənar müraciət zamanı mahiyyəti üzrə sərhədlərinin tam (kəskin) ayırd edilməsi çətin hesab edilə biləcək – müvafiq olaraq "социальное обеспечение" və "социальная защита" terminologiyasının paralel mövcudluğu şəraitində baş vermişdir.

Azərbaycan mənbələrindən uzaqlaşaraq yerli tədqiqatçılarımızın elmi araşdırmalarda daha çox müraciət etdiyi rusdilli mənbələrə nəzər yetirək:

A.V Konçuqovun sosial-siyasi aspektdən yazılmış "Sosial təminat və sosial müdafiə: nəzəriyyə və praktikanın bəzi məsələləri" adlı (rus dilində - "Социальное обеспечение и социальная защита: некоторые вопросы теории и практики") elmi məqaləsinin göründüyü kimi, "Google Scholar" axtarış sistemi üzrə sözügedən anlayışlar daxil edilməklə apardığımız axtarış nəticəsinə əsasən ən çox istinadın olduğu qeyd edilən yazının məzmununu nəzərdən keçirdikdə də sosial müdafiə və sosial təminat kateqoriyalarının əhatə etdiyi istiqamətlər, onların sərhədləri ilə bağlı vahid yanaşmaların olmadığının, eyni zamanda sosial müdafiənin isə sosial təminatdan daha geniş anlayış olmaqla onu özündə ehtiva etdiyinin diqqətə çatdırıldığı nəticəsini çıxarmaq olar [6].

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

2017-ci ildə Yaroslavl Dövlət Universitetində A.V.Sokolov, E.A.İsayeva və A.A.Frolov tərəfindən tərtib edilmiş "Sosial dövlətin və vətəndaş cəmiyyətin əsasları" (rus dilində) adlı tədris-metodiki vəsaitdə əhalinin sosial müdafiəsinin inkişafı tarixinin sosial risklərin idarə olunması üçün nümayiş etdirdiyi müxtəlif metodlar arasında birbaşa maliyyələşmə və dövlət büdcəsi vəsaiti hesabına zərərin kompensasiya edilməsi də (dövlət sosial təminatı) qeyd edilir [7].

T.Y.Barışnikova, Y.A.Kuznetsov və N.V. Roşşepko adlı digər rus müəlliflərə görə, aydınlıq gətirmək lazım hesab edilir ki, bunların, hər birinin müəyyən bir məqsədi olan, nisbətən müstəqil iki sistemdir. Bu vacibdir, çünki hazırda nə qanunvericilikdə, nə beynəlxalq təcrübədə, nə də elmi ədəbiyyatda "sosial müdafiə" termininin istifadəsinə və onun "sosial təminat" anlayışı ilə əlaqəsinə vahid yanaşma mövcud deyildir [8].

Eyni zamanda türkdilli (Türkiyə türkcəsində yazılan) mənbələrdə isə sosial müdafiə və sosial təminat adı altında əhatə olunan bütün istiqamətlərə münasibətdə daha çox vahid yanaşmada "sosial güvenlik" terminindən istifadə edilməklə baxıldığını da vurğulamaq lazımdır.

**Azərbaycanda sosial təminatın təsnifatlaşması problemləri**

Azərbaycanda fundamental hərtərəfli dövlət quruculuğu illərinin başlanğıcı hesab edə biləcəyimiz - 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 38-ci maddəsinə əsasən, sosial təminat hüququnun hər kəsə məxsus olduğu, bu çərçivədə yardıma möhtac olanlara kömək edilməsinin ilk növbədə onların ailə üzvlərinin borcu olması, qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda hər kəsin sosial təminat hüququna malik olduğu, təqaüdlərin və sosial müavinətlərin minimum məbləğinin qanunla müəyyən edildiyi, dövlətin xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaratdığı bünövrə olaraq təsbit edilmişdir. Eyni vaxtda sənədin digər hissələrində Azərbaycan Respublikasının Milli Məclisi (parlamentin) tərəfindən müəyyən edilən qaydalarla müəyyən edilən məsələlər sırasında əmək münasibətləri və sosial təminatın da dayandığı, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin etdiyi qeyd olunmaqla yanaşı, dövlətin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qaldığı da qeyd olunmuşdur. Sosial müdafiə ilə bağlı ikinci bir halda yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi bələdiyyələrin səlahiyyətlərinə aid edilmişdir.

Göründüyü kimi, ölkə Konstitusiyasının özünə əsasən belə, sosial müdafiə və sosial təminatın əhatəsinin müəyyən edilməsinin çətin olduğunu mülahizə etmək mümkündür. Bununla belə, qeyd edilən maddənin özünün də tərkibi üzrə nəzərə alınan istiqamətlərdən göründüyü kimi, ümumən burada sadalanan məsələlər sosial əhəmiyyətli olsa da, həmin maddə ilə nəzərdə tutulan istiqamətlər, sosial təminatın hazırda mövcud olan digər iqtisadi qanunvericilik aktlarında yer alan "sosial müdafiə" və "sosial təminat" ifadələri ilə nəzərdə tutulan və əsasən də bilavasitə maliyyə əhəmiyyəti kəsb etməklə fərqli istiqamətləri əks etdirən mənzərə ilə uzlaşmamaqdadır.

Qeyd etməliyik ki, qanunvericilik bazası üzərində həyata keçirilən spesifik sahə olaraq

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

büdcə-maliyyə idarəetməsi sferasında Azərbaycanda formalaşdırılmış bütün normativ resurslarda sosial müdafiə və sosial təminat kateqoriyalarına yanaşmanın tamamən fərqləndiyini və bunun əsasında isə xarakterik xüsusiyyət olaraq maliyyələşmə mənbələrinin fərqlənməsi cəhətinin dayandığını sezmək mümkündür.

Belə ki, misal olaraq bir halda qeyd etmək lazımdır ki, ölkədə büdcə sisteminin tərkib hissəsi kimi, büdcədənkənar məqsədli dövlət fondu olan – dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanun layihələri 2021-ci ilə qədər "sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsi" kimi ifadə edilmişdir (2020-ci il üzrə müvafiq sənəddə sözügedən redaktələr yalnız 2020-ci ilin sonunda qanunvericilik dəyişiklikləri ilə aparılmışdır). Eyni zamanda dövlət büdcəsi haqqında qanunlarda büdcə xərclərinin funksionallıq prinsipilə aparılan təsnifatlaşdırılmasında sosial müdafiə və sosial təminat ümumi təsnifat olaraq əks etdirilsə də, sosial təminatın sosial müdafiədən mahiyyət etibarilə fərqləndirildiyini də aydın görmək mümkündür.

Eyni vaxtda sahə üzrə mövcud inzibati-idarəetmə təcrübəsinə baxış da bu yanaşmanı möhkəmləndirməyə imkan verir: Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə təsdiq edilmiş əsasnaməyə söykənərək fəaliyyət göstərməklə Azərbaycan Respublikasında əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi, o cümlədən əmək pensiyaları və sosial sığorta, dövlət icbari şəxsi sığorta, əhalinin məşğulluğu, işsizlikdən sığorta, demoqrafiya, tibbi-sosial ekspertiza, əlilliyi olan şəxslərin reabilitasiyası, himayədar ailə və övladlığa götürmə sahələrində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olaraq səlahiyyətləndirilmiş Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) struktur quruluşu xüsusiyyətlərinə, eləcə də normativ bazasına nəzər yetirsək, burada da sosial müdafiə ilə sosial təminata fərqli yanaşıldığını görə bilərik.

Nazirliyin əsasnaməsinə uyğun olaraq verilən səlahiyyətlər çərçivəsində aztəminatlı ailələrə dövlət sosial yardımı, sosial müavinət, müxtəlif növ Prezident təqaüdləri, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzində aylıq müavinət, çətin həyat şəraitində yaşayan şəxslərə (ailələrə) dövlət sosial xidməti, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial təminat hüquqlarının təmin edilməsi və başqa növ sosial təminat məsələləri ilə bağlı siyasəti həyata keçirən Nazirliyin Aparatının Sosial təminat siyasəti şöbəsi üzrə müəyyən edilmiş vəzifələrə nəzər salsaq, o zaman da sosial müdafiənin adıçəkilən struktur vahidin fəaliyyət dairəsinə aid edilmədiyi, sosial təminatın ölkədə iqtisadi siyasət predmeti olaraq sosial müdafiədən ayrı tutulduğunu və burada əsasən büdcədən maliyyələşdirilən sosial dəstək tədbirlərinə fokuslanıldığı qənaətinə gəlmək mümkündür [9].

Azərbaycan elmi auditoriyasında iqtisadiyyat sahəsi ilə bağlı ilk irihəcmli ensiklopediktoplu olan və uzun illər boyu formalaşmış iqtisadi terminologiyanı və onların kifayət

AUDİT 2024, 3 (45), səh. 15-27.
AUDIT 2024, 3 (45), pp. 15-27.
АУДИТ 2024, 3 (45), стр. 15-27.

qədər təfsilatlı izahlarını əks etdirən - 2012-ci ildə nəşr edilmiş "Böyük İqtisadi Ensiklopediya"ya baxsaq, orada da sosial təminatın sosial müdafiənin bir bölməsi kimi, əmək qabiliyyəti olmayan əhalinin tələbatının ödənilməsi, həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər sistemi olaraq qeyd edildiyini, sosial təminatın əhatəsinə yuxarıda sadaladığımız istiqamətlərin daxil olduğunu, eyni zamanda onun üç hissəyə - sosial sığortaya, sosial təminatın özünə və sosial yardıma bölündüyünün ifadə olunduğuna şahid ola bilərik [10, s.546-547].

Buradan da sosial müdafiə və sosial təminat sahələrinin istər-istəməz əhatə etdiyi istiqamətlərin müəyyən xüsusiyyətlərinə görə özünəməxsus spesifik sahələri əhatə etməsi fikrini möhkəmləndirməyə əsasların olduğunu düşünməyə əsasların olması qənaətinə gəlməklə yanaşı, ölkə mühitində sosial təminatın özünün də sferasının sərhədlərinin akademik səviyyədə belə hələ də tam aydın olmadığı fikrinə gəlmək mümkündür.

Beləliklə, qeyd edilənlər, hesab edirik ki, sosial müdafiənin daha geniş kateqoriya olduğunu, Azərbaycan şəraitində sosial təminatın ümumən sosial müdafiə siyasətinin tərkib hissəsi olaraq qəbul edilməklə, sosial müdafiə ilə qarışdırılmamasını, lakin ümumilikdə sosial müdafiənin alt şaxəsi olaraq ayrıca tədqiqinin zəruri olduğu mülahizəsini möhkəmləndirməyə əsas verir.

Fikrimizcə, Azərbaycandilli mənbələrdə "sosial təminat" anlayışının istifadəsi daha çox rusdilli mənbələrdən istifadə əsnasında rus dilindəki"социальное обеспечение" terminindən törəmə olaraq ortaya çıxan bir haldır (yuxarıda rusdilli yazılar üzrə də nəticələrdən belə bir fikir irəli sürmək olur ki, bəzi hallarda Rusiya elmi məkanında da analoji halla qarşılanılmaqdadır). Bununla belə, rusdilli mənbələrdə sosial müdafiəyə münasibətdə bu terminin əhatəsi ilə bağlı daha çox konkretlilik və uzlaşma müşahidə edildiyi halda, azərbaycan müəllifləri tərəfindən ondan istifadə ilə bağlı dəqiqlikdən uzaqlaşma hallarının olması müşahidə edilməkdədir ki, bu da sosial müdafiə ilə bağlı tədqiqatların keyfiyyətlə aparılmasının maneə kimi önünə çıxan məqam hesab edilməlidir, çünki elmi tədqiqat məqsədilə seçilən terminologiya və buna uyğun tədqiqat predmetinin əhatə dairəsi əvvəlcədən müəyyənləşdirilmiş olmalı, problemlər üzrə tədqiqatın miqyası sistemin əhatə dairəsinə adekvat seçilməlidir. Eyni zamanda bu istiqamətdə ikili və ya qarışıq yanaşmaların gündəmdə olması digər tədqiqatçılar üçün də anlaşılmazlıqlar yaradacaqdır.

Azərbaycan şəraitində yanaşma fərqlilikləri özünü təkcə qeyd edilən müstəvilərdə deyil, eyni zamanda ölkədə sahələr, o cümlədən sosial-iqtisadi sfera ilə bağlı rəsmi statistikanın əldə olunduğu Dövlət Statistika Komitəsinin rəsmi internet resursları nümunəsində də göstərməkdədir: burada da sosial təminata dair statistika olaraq 19.03.2024-cü il tarixində açıqlanan məlumatda pensiyalar barədə göstəricilərlə yanaşı, büdcədən maliyyələşdirilən sosial müavinətlər, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına verilən aylıq müavinətlər, şəhid ailələrinin, müharibə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş şəxslərin, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması

AUDİT 2024, 3 (45), səh. 15-27.
AUDIT 2024, 3 (45), pp. 15-27.
АУДИТ 2024, 3 (45), стр. 15-27.

iştirakçılarının və müddətli hərbi xidmət qulluqçularının ailəsinə uşaq üçün verilən aylıq müavinətlər, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə, övladlığa götürülən, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə ailələrə və beşdən çox uşağı olan qadınlara uşaqlar üçün ödənilən sosial müavinətlər, əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkən şəxslərə verilən kompensasiyalar, məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla, ailələrə uşaq anadan olmasına görə, radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə müalicə üçün və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilənlərə birdəfəlik verilən müavinətlər, ünvanlı dövlət sosial yardımı almış aztəminatlı ailələr və onların ailə üzvlərinin sayı və bir nəfərə düşən orta aylıq məbləği, müxtəlif kateqoriyadan olan Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin olunmuş şəxslərin sayı barədə məlumatlar təqdim edilmişdir [11].

Buna paralel olaraq, sözügedən mənbənin "Səhiyyə, sosial müdafiə, idman" bölməsi sosial statistikaya dair bölmə qismində göstərilmişdir ki, həmin bölmənin altbölmələrində isə sadalanan istiqamətlərə dair göstəricilər verilsə də, adında "sosial təminat" ifadələrinin istifadə olunduğu bölməyə də rast gəlinməməkdədir. Sosial müdafiə bölməsində isə pensiya sahəsi üzrə məlumatlarla yanaşı, əhali arasında əlillik, əmək şəraiti və istehsalatda bədbəxt hadisələr, dövlət büdcəsindən maliyyələşdirilən sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, ünvanlı dövlət sosial yardımı ilə bağlı məlumatlar da verildiyi görünməkdədir.

Beləliklə, müxtəlif istiqamətlər üzrə qeyd etdiyimiz müxtəlif hallar sosial müdafiə və sosial təminata kateqoriya baxımından yanaşmada hələ də vahid elmi-nəzəri fikrin formalaşmadığını deməyə əsas verir. Bu isə, hesab edirik ki, elmi tədqiqatlarla bağlı hər iki anlayışla əhatə olunan biləcək sahələrə kompleks yanaşmada uyğunsuzluqlar və natamamlıqlar formalaşdırlmasına səbəb olmaqla, onların tədqiqini də lazımı səviyyədə aparmaqda maneəçilik yaradır.

Maraqlıdır ki, dövlət idarəetməsinin ən mühüm və spesifik sahələri kimi şərti və nəzərə olaraq sosial müdafiə və sosial təminat sahələrinin istiqamətlərini əhatə etməklə ümumi elmi-nəzəri yanaşmanın sosial müdafiə üzərində deyil, sosial təminat üzərində qurulmalı olacağını hesab edəcəyimiz halda, sosial təminatla bağlı fundamental olaraq çərçivələri müəyyən edən qanun sənədinin də ortaya qoyulmalı olacağı nəzərəçarpan məqam kimi qeyd edilə bilər. Məsələ ilə bağlı uyğunsuzluqların ortaya çıxmasının qarşısının alınması məqsədilə isə belə bir qanun sənədinin hazırlanması ilə bağlı hələ qərar qəbulu mərhələsində müsbət rəyin əldə olunmayacağı daha çox real hesab edilir, çünki bütün hallarda onun işlənilməsi sosial müdafiə və sosial təminatla bağlı dövlət siyasətinin işlənilməsi və tətbiqi ilə bağlı məhdudiyyətlər də yaratmış ola biləcəkdir ki, bu da müəyyən mənada təkmilləşdirilmənin də qarşısının alınmasına gətirib çıxara bilər.

Bu mənada Azərbaycan kontekstində sosial təminat istiqamətlərinin də sosial müdafiənin tərkib hissəsi kimi nəzərə alınmaqla ümumən sosial müdafiə sisteminin tərkib hissəsi olaraq sistemli tədqiqi bütün aspektlərdən (elmi, inzibati-idarəetmə, normativ quruculuq) zəruri

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

məsələlərdən biri kimi nəzərə alınmalıdır.

Bununla sosial müdafiə sisteminin struktur quruluşunun Azərbaycan kontekstindən geniş mənada aşağıdakı ümumiləşdirilmiş şərti sxematik təsvirlə verilmiş strukturda qəbul edilməsini və tətbiqini zəruri hesab edirik (şəkil 1.):




***Şəkil 1. Sosial müdafiə və sosial təminatın iqtisadi mahiyyət fərqi (ümumiləşdirilmiş şərti sxem)***

Sxematik təsvirdən də göründüyü kimi, sosial müdafiə və sosial təminatın əhatəsi ilə bağlı Azərbaycan kontekstində də yanaşma fərqlərinin baş verməsi mümkün hesab edilir. Məsələn, ünvanlı sosial yardım, yaxud icbari tibbi sığorta sistemləri müəyyən müəlliflər tərəfindən birbaşa sosial müdafiə sferasının tərkib həlqəsi kimi də irəli sürülə bilər və s.

Bununla belə, hesab edirik ki, sosial müdafiə və sosial təminat kateqoriyalarının mahiyyəti ilə bağlı yanaşma fərqlərinin əsasında dayanan əsasların əsas əlamətlərini aşağıdakı prinsiplərə söykənməklə icmallaşdırmaq olar:

– maliyyələşmə mənbələri baxımından: ümumi ifadədə, hazırda Azərbaycanda sosial təminatın maliyyələşmə mənbələri olaraq dövlət büdcəsini, icmal büdcənin tərkib hissəi olan – büdcədənkənar məqsədli dövlət fondları olmaqla dövlət sosial müdafiə fondunu, eləcə də işsizlikdən sığorta fondunu, habelə icbari tibbi sığorta fondunu, dövlət icbari şəxsi sığorta

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

fondunu, müəyyən mənada bələdiyyə və yaradılmış digər sosial dəstək məqsədli büdcələri də qeyd etmək olar;

– sosial təminat bütün əhali kateqoriyalarını deyil, sosial və iqtisadi cəhətdən həssas hesab edilən və əhatə dairəsi mövcud normativ baza ilə müəyyən edilən əhali kontingentinə yönəlmiş tədbirlər sistemini əks etdirir (bu mənada sosial təminatla əhatə olunan istiqamətlər (sosial təminat formaları) və əhatə edilən benefisiar kontingentinin miqyası hər bir ölkədə sosial müdafiə ilə bağlı tutulan mövqedən irəli gələrək spesifik fərqlənmələr, diversifikasiya göstərməklə, əsasən ortaq (bənzər) əsaslara söykənsə də, fərqlənən tərtibatda da özünü göstərə bilər);

– sosial təminatın və sosial müdafiə arasında təsnifat fərqləndirilmələrin əsas əlamət istiqamətlərindən biri olaraq bu iki istiqamət üzrə təminat prosesinin təşkilində maliyyələşmə mənbələrinin dövlət büdcəsinə, yaxud məqsədli büdcədənkənar dövlət fondlarına əsaslanması hesab edilə bilər.

## YEKUN

Mövzuda aparılan təhlil və müzakirə nəticələrinə əsasən, Azərbaycan Respublikasının sosial müdafiə modeli çərçivəsində sosial müdafiənin təkmilləşdirilməsi baxımından sosial təminat sahəsində aşağıdakı istiqamətlər üzrə konseptual məsələlərin nəzərə alınmasını məqsədə müvafiq hesab edirik:

– sosial təminatın sahə olaraq sosial müdafiənin tərkib hissəsi olaraq nəzərə alınması, o cümlədən sosial təminat istiqamətlərinin sosial müdafiə mövzusunda tədqiqatların obyekti olaraq tədqiqinin qəbuledilən olması, bunun əksinin isə adekvat yanaşma olmadığının qəbul edilməsi sosial müdafiənin təkmilləşdirilməsi nöqteyi-nəzərdən elmi-tədqiqat, eyni zamanda qanunvericilik, inzibati-idarəetmə aspektindən zəruri əhəmiyyət kəsb edir;

– sosial müdafiə və sosial təminat arasındakı fərqlənmələrin əsas cəhətlərini – sosial müdafiənin daha çox əmək fəaliyyəti bazasında yaranan və sığorta prinsiplərinə əsaslanan münasibətlərlə bağlı olması, vətəndaşa münasibətdə daha çox qazanılmış sosial-iqtisadi mahiyyətli hüquqların təmin olunması ilə bağlı olduğunun təsəvvür olunmasında, sosial təminatın həyata keçirilməsində isə əsas məqsədin birbaşa dövlətin məqsəd və funksiyalarının icrası üçün əlverişli mühit yaradılması, bu çərçivədə sosial və iqtisadi cəhətdən həssas və ehtiyacı olan insanlara sosial-reabilitasiya əhəmiyyətli və maddi şəkildə dəstək göstərilməsi ilə onların sosial inteqrasiyasının təmin olunması və bununla dövlətin fəaliyyəti üçün əlverişli sosial mühit formalaşdırılması məqsədlərinə əsaslanma ilə xarakterizə etmək olar. Bu da öz növbəsində bu anlayışların mahiyyətlərindən irəli gəlməklə, bu iki kateqoriyaya münasibətdə maliyyə mənbələrinin də xarakterik olaraq fərqlənməsini (dövlət büdcəsi və digər) ortaya çıxarmaqla, baş verən yanaşma fəqliliklərinin də əsasını təşkil etməkdədir;

– ölkədə cari şərtlərdə və vəziyyətdə sosial müdafiənin təkmilləşdirilməsi məqsədilə sosial müdafiə və sosial təminatın bütün müstəvilərdə vahid meyarlarla təsnifatlaşdırılması ilə bağlı addımların atılması əhəmiyyətli hesab edilir;

– hər iki istiqamətlə bağlı yanaşmaların qeyd edildiyi istiqamətdə təkmilləşdirilməsinə

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

paralel olaraq, sosial təminatın büdcə və qeyri-büdcə maliyyə mexanizmlərinin səfərbər edilməsilə onun sosial əhatəsinin və maliyyə miqyasının genişləndirilməsi sosial müdafiənin fundamental inkişafı baxımından əhəmiyyət kəsb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Aslanova İ. Azərbaycan Respublikasında davamlı inkişaf şəraitində sosial təminat və sosial müdafiə // Proceedings of the International Conference on Sustainable Development and Actual Problems of Humanitarian Sciences Dedicated to the 95th Anniversary of the National Leader Haydar Aliyev, Baku: Azerbaijan University, 14-15 may, 2018, s. 35-37.

2. Hüseynov R.A. Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində // Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Xəbərləri, 2016. №4, s. 44-63.

3. Aslanov Z.Y., Dadaşova K.S. Respublikamızda sosial təminatın müasir standartlara inteqrasiyası // Bakı: Tikintinin iqtisadiyyatı və menecment, 2017. №3, s. 94-100.

4. Yusifova N.Ə. İşğaldan azad edilmiş ərazilərdə sosial təminat və quruculuq işləri // Azərbaycan Respublikası - 1991-2021-ci illər: dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosial-mədəni inkişaf. Sumqayıt: Sumqayıt Dövlət Universiteti, 15 oktyabr, 2021, s. 279-281.

5. Mirzəbəyova Ş. Modernləşmə prosesinin ziddiyyətləri: sosial ədalət problemləri // Bakı: İpək Yolu, 2017. №3, s. 148.

6. Кончугов А.В. Социальное обеспечение и социальная защита: некоторые вопросы теории и практики // Москва: Власть, 2017. №4, s.117-122. https://sosial.gov.az/storage/pages/5816/sosial-teminat-siyaseti-sobesi-esasname.pdf.

7. Соколов А. В. Основы социального государства и гражданского общества: учебно-методическое пособие / Е. А. Исаева, А. А. Фролов; Ярославль: Яросл. Гос. Ун-т, 2017. 44 с.

8. Барышникова Т.Ю., Социальная политика государства. Ч. 1. / Ю.А. Кузнецов, Н.В. Рощепко; Ярославль: ЯрГУ, 2012. 104 с.

9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Sosial təminat siyasəti Şöbəsinin Əsasnaməsi: [Elektron resurs] / URL: https://sosial.gov.az/nazirlik/sosial-teminat-siyaseti-sobesi

10. Böyük İqtisadi Ensiklopediya / Baş redaktor Z.Ə. Səmədzadə. Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 305 s.

11. Azərbaycan Dövlət Statistika Komitəsi: [Elektron resurs] / URL: https://www.stat.gov.az/news/index.php?lang=az&id=5826. [26 04 2024].

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

*Emin Ali Alirzayev,*
*Ph.D. (Econ.),*
*Azerbaijan State University of Economics (UNEC)*
*Email: alirzayev@gmail.com*
*© E.A. Alirzayev, 2024*

# CONCEPTUAL ISSUES OF SOCIAL SECURITY IN THE REPUBLIC OF AZERBAIJAN

## A B S T R A C T

**The purpose of the research** is to identify scientifically based mechanisms for solving conceptual problems of social security in the direction of improving social protection in the Republic of Azerbaijan.

**The methodology of the research -** the research process is carried out through a comparative scientific analysis of international and domestic practices that have developed at the level of sectoral management.

**The practical importance of the research** - the article examines the possibilities of applying social protection programs to the development of the country's social protection system. As a result, the proposals presented in this article can be used to make informed decisions.

**The results of the research** - the article can be used in the preparation of the regulatory framework and priority areas of the social protection system related to the infrastructure of the social protection system in Azerbaijan.

**The originality and scientific novelty of the research** - the formation of systemic approaches in the scientific and managerial areas of social security based on the national model of social protection.

**Keywords:** social protection, social security, social welfare, improvement of social protection, extrabudgetary funds, pension provision, social benefits.

**AUDİT 2024, 3 (45), səh. 15-27.**
**AUDIT 2024, 3 (45), pp. 15-27.**
**АУДИТ 2024, 3 (45), стр. 15-27.**

*Алирзаев Эмин Али оглы,*
*доктор философии по экономике,*
*Азербайджанский Государственный*
*Экономический Университет (UNEC)*
*Email: alirzayev@gmail.com*
*© Алирзаев Э.А., 2024*

# КОНЦЕПТУАЛЬНЫЕ ВОПРОСЫ СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## Р Е З Ю М Е

**Цель исследования** – выявить научно обоснованные механизмы решения концептуальных проблем социального обеспечения в направлении улучшения социальной защиты в Азербайджанской Республике.

**Методология исследования -** процесс исследования осуществляется путем сравнительного научного анализа международной и отечественной практики, сложившейся на уровне отраслевого управления.

**Практическая значимость исследования** - в статье исследуются возможности применения программ социальной защиты на развитие системы социальной защиты страны. В результате предложения, представленные в этой статье, могут быть использованы для принятия обоснованных решений.

**Результаты исследования** - статью можно использовать при подготовке нормативной базы и приоритетных направлений системы социальной защиты, связанных с инфраструктурой системы социальной защиты в Азербайджане.

**Оригинальность и научная новизна исследования** - формирование системных подходов в научном и управленческом направлениях социального обеспечения на основе национальной модели социальной защиты.

**Ключевые слова**: социальная защита, социальное обеспечение, социальное благосостояние, улучшение социальной защиты, внебюджетные фонды, пенсионное обеспечение, социальные выплаты.

*Məqalə redaksiyaya daxil olmuşdur: 20.06.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 23.07.2024*
*Çapa qəbul olunmuşdur: 07.08.2024*

*Дата поступления статьи в редакцию: 20.06.2024*
*Отправлено на повторную обработку: 23.07.2024*
*Принято к печати: 07.08.2024*

*The date of the admission of the article to the editorial office: 20.06.2024*
*Send for reprocessing: 23.07.2024*
*Accepted for publication: 07.08.2024*